KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 11 (571) 18-24 mart, Adar, sal, il 2024
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: 40 qәpik
Hêjaye:

## CEJNA GELÊ ME YA NETEWÎ NEWROZ PÎROZBE!
## XALQIMIZI NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİRİK!


Səh. 2

**Prezident İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb**


Səh. 4-5

**SERBAJARÊ AZERBAYCANÊ EYDA NEWROZÊ HAT DERBAS KIRIN**


Səh. 2

**Serok Barzanî cejna Newrozê û sersala Kurdî li gelê Kurdistanê û Kurdistaniyên li derve pîroz dike**


Səh. 2

**Nêçîrvan Barzanî: Heta Kurd û Kurdistan bê înkarkirin Iraq aram nabe**


Səh. 16

**Mesrûr Barzanî: Em dev ji mafên gelê Kurdistanê bernadin**


Səh. 16

**Leyla Zana: Em bi tekoşîna Mele Mistefa Barzanî bi hestên Kurdbûnê hesiyan**


Səh. 17

**Gelo ji bo kurdan mafên neteweyî û dewlet û federalî xwastin cudaxwazî ye?**

## Rayonlarda Novruz tədbirləri Səh. 3

## Şandeke bilind a Yekîtiya Ciwanên Demokrat ên Kurdistanê li Çînê beşdarî di dewreyeke pêşveçûnê de dikin Səh. 11

## 1905-06-cı illərdə erməni-müsəlman davasında Kürd Xalqının rolu Səh. 8

## PWK, PSK, HAK-PARê Li Amedê Bi Meşa Bi Meşxeleyan Newroz Pîroz Kirin Səh. 16

## UNESCO'dan 'Newroz' açıklaması: Herhangi bir millete özgü değildir Səh. 9

## Ко дню рождения Мустафы Барзани Səh. 19


Səh.4

**Cejana Newrozê Serê Salê nû ye**


Səh. 4

**NEWROZA ME**


Səh. 17

**Sûdanî ji bo ziyandîtiyên lehiya Dihokê biryara alîkariyê da**


Səh. 5

**Nəvroz mifologiya deyil yaşanmış bir tatixi hadisədir!**

2 № 11 (571) DÎPLOMAT 18-24 mart, Adar, sal. il 2024

# Prezident İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb.

Dövlətimizin başçısı Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib.

Prezident İlham Əliyevin təbriki

- Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir.

Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı nəticəsində böyük qəhrəmanlıq göstərmişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün biz bu torpaqlarda qururuq, yaradırıq, bu torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq biz artıq keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytara bilmişik və bu il bu proses davam edəcək.

Əfsuslar olsun ki, İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistana dərs olmadı. Keçən ilin Novruz bayramı təbriklərimdə mən bu barədə danışmışdım və təəssüf hissimi bildirmişdim ki, İkinci Qarabağ müharibəsindəki onların məğlubiyyəti onlara dərs olmadı. Əgər dərs olsaydı, antiterror əməliyyatının keçirilməsinə ehtiyac olmazdı. Ermənistan İkinci Qarabağ müharibəsindən sonra keçən üç il ərzində düzgün nəticə çıxarmamışdır, öz qanunsuz silahlı birləşmələrini bizim torpağımızda əbədi saxlamaq istəyirdi, burada vaxtilə qanunsuz yaradılmış qondarma dırnaqarası Dağlıq Qarabağ respublikasını yaşatmaq istəyirdi. Bütün bunlar beynəlxalq hüquqa tamamilə ziddir və ən əsası Azərbaycan xalqının iradəsinə ziddir.

Azərbaycan İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazilərinin böyük hissəsini döyüş meydanında azad edib. Halbuki işğal dövründə dəfələrlə bir çox paytaxtlardan bizə siqnallar göndərilirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var. Əgər işğalçı dövlət qanunsuz olaraq digər ölkənin ərazisini işğal altında saxlayır və o torpaqlardan öz xoşu ilə çıxmaq istəmirsə, yeganə yol hərbi yoldur. Biz beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özümüz döyüş meydanında bərpa etmişik.

Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsidir. Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq.

Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır. Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır. Təbii ki, əsas vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək idi. Bu məqsədlə hərbi gücümüzü artırmaq bizim əsas vəzifəmizdir. Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artmışdır, maddi-texniki təchizat ən yüksək səviyyədə həll olunurdu və İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı bunu bütün dünyaya nümayiş etdirdi. Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər. Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz bütün şəhidlərimizin, günahsız Xocalı qurbanlarının qanını döyüş meydanında aldıq və bununla fəxr edirik. İstənilən ölkə, istənilən xalq bununla fəxr edə bilər, o cümlədən biz. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququmuzu, milli ləyaqətimizi bərpa etmişik və bu gün azad xalq kimi yaşayırıq, qururuq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq.

Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən "Zəfər meydanı" adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır.

Xankəndi qədim Azərbaycan torpağıdır, Pənahəli xan tərəfindən salınmışdır. Ancaq əfsuslar olsun ki, keçən əsrin 20-ci illərinin əvvəllərində tamamilə əsassız, heç bir hüquqi, siyasi və demoqrafik əsası olmadan burada muxtar vilayət yaradılmışdır və ondan sonra xalqımızın problemləri də başlamışdır. Nəticə etibarilə keçən əsrin 80-ci illərinin sonlarında Ermənistan bizə qarşı müharibə elan edərək, separatçı qüvvələri dəstəkləyərək, xalqımıza qarşı soyqırımı və digər qanlı cinayətlər törədərək, əfsuslar olsun ki, o vaxt öz çirkin arzularına çata bilmişdir. Hesab edirdilər ki, bu torpaqları işğal altında əbədi saxlaya biləcəklər. Bu məsələdə onlara dəstək verən xarici qüvvələr və bu gün dəstək verən xarici qüvvələr bu qanlı məsuliyyəti onlarla bölüşürlər. Bu gün biz azad edilmiş Qarabağda başımızı dik tutaraq yaşayırıq. Bu il Xankəndiyə və digər şəhərlərə, o cümlədən Xocalıya, Şuşaya, Cəbrayıla, Kəlbəcərə keçmiş köçkünlər qayıdacaqlar, bir neçə kəndə köçkünlər qayıdacaqlar və həyat qaynayacaq. Xankəndi sovet dövründə də Azərbaycan büdcəsi hesabına, Azərbaycan memarları və inşaatçıları tərəfindən inşa edilmişdir. Bax, arxadakı bina Vilayət Partiya Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Həsən Məcidov idi. Onun yanındakı bina 1970-ci illərdə inşa edilmişdir, Vilayət İcraiyyə Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Nəsrullah Kəngərli idi. Bu bina isə o vaxt mehmanxana kimi inşa edilmişdir. Ondan sonra ermənilər onun xarici görünüşünü dəyişdirmişdilər. İndi bu binanın əzəli siması ona qaytarılır və bu mehmanxananın müəllifi Azərbaycan memarı Ənvər Qasımzadə idi.

Bax, təkcə bu misallar onu göstərir ki, bu şəhəri və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində olan bütün şəhərləri, kəndləri salan, yaradan, memarlığının müəllifi olan, inşaat işlərində iştirak edən Azərbaycan xalqının nümayəndələri idi. Bu binalar bizim tarixi sərvətimizdir. Onlar qorunur, qorunacaq və gördüyünüz kimi, indi əsaslı təmir edilir. Durduğum yerdə isə separatçılar qondarma parlament binası inşa etmişdilər. Gördüyünüz kimi, artıq burada heç bir bina yoxdur. Bu, azmış kimi, onlar elə Şuşada ikinci parlament binasını inşa etməyə çalışırdılar, onun inşa işləri başlamışdır, amma çatdıra bilməmişlər və o bina söküldü. O binanın yerində indi beşulduzlu "Şuşa" oteli yerləşir. Keçmiş dırnaqarası parlament binası da söküldü və sökүntü işləri fevralın 26-da başlamışdır. Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası – dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür. Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq. Mən bir daha əziz xalqımı qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

# Serok Barzanî cejna Newrozê û sersala Kurdî li gelê Kurdistanê û Kurdistaniyên li derve pîroz dike



Serok Mesûd Barzanî bi boneya hatina cejna Newrozê û sersala nû ya kurdî, pîrozbahî li gelê Kurdistanê û Kurdistaniyên li derve dike.

Serok Mesûd Barzanî peyameke pîrozbahiyê li tora civakî "X" belav kir û tê de got: "Bi boneya cejna netewî ya Newrozê û sersala kurdî 2724an pîrozbahiyê li xelkê xweşewîst ê Kurdistanê û Kurdistaniyên derveyî welat dikim."

Serok Barzanî got jî: "Herwiha pîrozbahiyê li hemû gelên ku Newrozê pîroz dikin dikim. Hêviya xêr û xweşiyê ji her aliyekî re dixwazim. Newroza we pîroz be."

# Nêçîrvan Barzanî: Heta Kurd û Kurdistan bê înkarkirin Îraq aram nabe



Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî got, "Eger em yek helwest û yekgirtî bûna rewş nedigihişt îro."

Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî ji bo Newrozê peyameke pîrozbahiyê belav kir.

Nêçîrvan Barzanî di peyama xwe de Newroza gelê Kurd û pêkhateyên Herêma Kurdistanê pîroz kir û wiha got:

Cejna Newrozê ku cejna neteweyî û sersala nû ya Kurdî ye li malbatên serbilind ên şehîdan, li her Kurdekî û li hemû pêkhateyên gelê Kurdistanê li her dera lê bin bi germî pîroz dikim.

Ez ji her kesî re saleke nû ya xweş, saxlem, aram û serkeftî dixwazim.

"Eger em yekhelwest û yekgirtî bûna rewş nedigihişt îro"

Îro dema ku em di rewşeke hestiyar de derbas dibin, ez bangî aliyên siyasî yên Kurdistanê dikim ku bi rihê berpirsiyariya niştimanî û li hevtêgihiştinê nakokiyên xwe çareser bikin da ku em bi hev re bikarin rûbirûyê gef û metirsî û aloziyan bibin, statuya siyasî, mafên mirovan û destkeftiyên xwe yên destûrî biparêzin. Em hemû di heman gemiyê de ne û eger em yekhelwest û yekgirtî bûna rewş nedigihişt îro.

"Bi înkarkirin û binpêkirina mafên Kurdan Îraq xweş û aram nabe"

Gelê Kurdistanê ti carî dest ji azadî û mafên xwe bernade.

Dîrokê îspat kiriye ku hindî înkarkirina Kurd û Kurdistanê bê kirin û mafên wan bêne binpêkirin, Îraq xweş û aram nabe.

Bila em hemû li Îraqê ji xeletiyên xwe yên ber fêr bibin. Cîbicîkirina destûr, federalî û rêkeftinên siyasî, destwerdana di şayesteyan de û hewldana ji bo biçûkirina Herêma Kurdistanê û binpêkirina mafên wan yên destûrî, ji bilî ziyanê ti sûdek nade Îraqê.

Di vê cejna pîroz da em tekezî li ser bawerî û siyaseta xwe ya neguherî dikin ku Herêma Kurdistanê wekî her car dê bibe faktora aştî û aramiyê li navçeyê.

Têkiliyên baş, dostanî û cîrantiya baş li ser esasê rêzgirtin û berjewendiyên hevpar daxwaza me ye. Bi vê minasibetê em pîrozbahiyê li wan gelan jî dikin yên ku Newrozê pîroz dikin.

Spasiya têgihiştin, ruhê berpirsyarî û berxwedana karmend û xelkê Kurdistanê dikim. Em ji nêz ve rewşa jiyana wan dizanin. Çareserkirina vê rewşê li hemû saziyên Herêma Kurdistanê karê me yê pêşîn e. Ez wan piştrast dikim ku ev zehmetî dê derbas bibin û bibin tiştek berê. Bi hêvî em ber bi jiyan û paşerojeke baştir ve dimeşin û Kurdistan her tim dê welatê bihevrejiyan, tolerans û pirdengiyê bimîne. Newroz û sersala nû li we pîroz be. Her sal bi xêr û xweşî be."

# Xəzər rayonunda ümumrayon Novruz şənliyi keçirilib



Xəzər Rayon İcra Hakimiyyəti və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda Novruz şənliyi keçirilib.

Tədbirin açılışında Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, Milli Məclisin deputatı Rauf Əliyev çıxış ediblər. Tədbirdə həmçinin, Xəzər rayonu rəsmiləri və aralarında məktəblilərin, şəhid ailələrinin, qazilərin də daxil olduğu rayon ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları xalqımızın mədəni irsini özündə əks etdirən Novruzun çoxəsrlik ənənələri, mətbəxi və məişətinin nümayiş olunduğu pavilyonlarla tanış olduqdan sonra, Xəzər rayonu ərazisində fəaliyyət göstərən məktəbəqədər və orta ümumtəhsil müəssisələrinin özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının folklor nümunələrini, eləcə də idman məktəblərinin çıxışlarını izləyiblər. Şənlik iştirakçılarına açıq səma altında yerləşən "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində xalçaçılıq, duluzçuluq kimi qədim sənət nümunələri də təqdim olunub.

Azərbaycan Milli İdman Növləri Assosiasiyasının təqdimatında göstərilən milli güləş, zorxana, masresling, ənənəvi oxatma və alpaqut kimi etno idman növləri iştirakçıların böyük marağına səbəb olub.

Bundan başqa, Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Peşə Təhsili Mərkəzinin tələbələri qonaqlar üçün müxtəlif sənətkarlıq nümunələrini sərgiləyiblər. Novruz təntənəsi mədəniyyət və incəsənət ustalarının iştirakı ilə baş tutan bayram konsert proqramı ilə davam edib.

# Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun Novruz bayramı münasibəti ilə tərtərlilərə təbriki

Əziz tərtərlilər, Sizi Novruz bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Sizə uzun ömür, can sağlığı, xoşbəxtlik, süfrələrinizə bol ruzi, bərəkət arzulayıram.

Novruz bayramı əsrlərin sınağından çıxmış, ta bu günədək gəlib çatmış milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Milli Bayramımızdır. Xalqımız min illərdir ki, Novruzun gəlişini bayram edir.

Artıq 4 ildir ki, 44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan möhtəşəm Qələbə-Zəfər günü Odlar yurdu Azərbaycanımıza əbədi bir bahar gətirib. Bu baharı bizə gətirən şəhidlərimizə-işğaldan azad edilmiş torpaqlarımızda aparılan lokal xarakterli antiterror əməliyyatlarında canlarını qurban vermiş oğullarımıza Ulu Tanrıdan rəhmət diləyir, şəhid analarının qarşısında baş əyir, qazilərimizə can sağlığı arzulayırıq. Şəhidlərin, qazilərin, müharibə veteranlarının-Azərbaycanımızın döyüşən igid oğul və qızlarının sayəsində uzun illərdən sonra soydaşlarımız doğulub-böyüdükləri torpaqları ziyarət edə bildilər. Doğma Qarabağımıza-Şuşaya, Xankəndinə, Xocalıya, Ağdama, Cəbrayıla, Qubadlıya, Ağdərəyə və digər işğaldan azad olunmuş torpaqlara gedə bildilər. İşğaldan azad edilmiş torpaqlarımızda qalanan bayram tonqalları neçə illik yurd




həsrətimizə, nisgilimizə son qoydu, qəlblərdəki doğma yurd həsrətinin buzlarını əritdi, bir daha düşmənə mənəvi zərbə vurdu, şəhidlərimizin ruhu şad oldu.

Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev 2021–ci ildə Şuşadan–Cıdır düzündən, 2022-ci ildə Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsindən, 2023-cü ildə yenə də rayonumuzun Talış kəndindən, bu il isə Xankəndindən Azərbaycan xalqini təbrik edib, bayram tonqalını yandırdı.

Qoy bir daha çatılan tonqallarımız sönməsin!

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğı hər kəsə bir nümunədir.

Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında doğma Qarabağımız yenidən dirçəlir, bir gülüstana çevirilir. İşğaldan azad edilmiş torpaqlarımızda, şəhər və rayonlarımızda nəhəng quruculuq işləri başlanıb. Ağıllı kəndlər salınır, şəhərlər bərpa edilir, uzun illər dogma ocaqlarından didərgin düşmüş məcburi köçkünlər geriyə dönürlər. İnanırıq ki, Novruz bayramı xalqımıza sevinc, bol ruzi, bərəkət gətirəcək. Bir daha Sizləri Novruz bayramı münasibəti ilə təbrik edir, Sizə ən xoş arzularımı çatdırır, şəhid anaları qarşısında baş əyirəm!

Novruz bayramınız mübarək!

# Gəncədə Novruz Bayramı münasibətilə el şənliyi keçirilib



18 Mart 2024-cü il tarixində Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin, F.Əmirova Gəncə Dövlət Filarmoniyasının, Gəncə Dövlət Kukla Teatrının və Gəncə Dövlət Dram Teatrının dəstəyi ilə şəhərin Heydər Əliyev adına meydanında Novruz Bayramı münasibətilə ümumşəhər tədbiri baş tutub. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Yaşar Ömərov, xeyriyyəçi və ictimai xadim Hacı Nuran Hüseynov, idarə, müəssisə və təşkilat rəhbərləri, bələdiyyə sədrləri, ictimaiyyət nümayəndələri və şəhər sakinləri iştirak ediblər. Əvvəlcə tədbir iştirakçılarını elimizin qədim adəti ilə əllərində şərbət olan milli geyimli qızlar qarşılayıb, daha sonra müdrik el ağsaqqalı Dədə Qorqud və Bahar qızı qonaqları salamlayaraq, onlara xeyir-dua verib, xoş arzularını bildirblər. Tədbirin davamında Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin "Xəmsə" nağaraçalanlar ansamblının, Gəncə şəhər Zərif Qayıbov adına 5 nömrəli Uşaq Musiqi Məktəbinin aşıq sinfinin şagirdlərinin, Göygöl rayon Mədəniyyət Mərkəzinin dərnək üzvlərinin çıxışları izlənilib. Daha sonra Gəncə pəhləvanlarının, həmçinin idmançıların güləş, taekvando, bədii gimnastika və digər idman növləri üzrə nümunəvi çıxışları nümayiş olunub. Meydanda qurulan "Xəmsə çadırları"nda sərgilənən milli geyimlərimiz, "Gəncə səbəti", qədimi qab-qacaq, həmçinin kitab satış-sərgisi və "faceart" şəhər sakinlərinin marağına səbəb olub. Daha sonra "Gəncəsənət" – incəsənət, sənətkarlıq və yaradıcılıq sərgisinə, həmçinin Gəncə şəhərində fəaliyyət göstərən ali təhsil müəssisələri tələbələrinin, Gəncə şəhər Uşaq Rəssamlıq Məktəbinin şagirdlərinin, Gəncə şəhər Gənclər Evi SXM-nin dərnək üzvlərinin hazırladığı təsviri incəsənət əsərləri və əl işlərindən ibarət sərgiyə baxış keçirilib. Gəncə Dövlət Kukla Teatrının nəhəng kuklalarının, Novruzun əvəzolunmaz atributları olan Keçəl və Kosanın maraqlı çıxışları izlənilib. El şənliyi zamanı qonaqlar Gəncə Uşaq Evinin sakinləri ilə yumurta döyüşdürüblər. Daha sonra bayram tonqalının alovlandırılması üçün meydana atlılar daxil olublar. Novruz tonqalını 2023-cü ilin "Ən yaxşı çapar"ı adına layiq görülmüş Xəlil Allahverdiyev alovlandırıb. Novruz Bayramına həsr olunan ümumşəhər tədbiri Gəncə Dövlət Filarmoniyasının "Göygöl Dövlət Mahnı və Rəqs Ansamblı"nın təqdimatında konsrert proqramı ilə başa çatıb.

# Laçınlı məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı Ağcabədi rayonunun Taxta körpü qəsəbəsində "Novruz" bayramı münasibəti ilə ümumrayon şənliyi keçirilmişdir

2024-cü il 15 mart tarixində Laçın Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Taxta Körpü qəsəbəsində Laçın rayonunun Şamkənd kənd



uşaq musiqi məktəbinin qarşısında Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərlinin, rayonun hüquq mühafizə orqanları rəhbərlərinin, idarə, müəssisə kollektivləri və çoxsaylı qəsəbə sakinlərinin iştirakı ilə "Novruz" bayramı ilə əlaqədar ümumrayon bayram şənliyi keçirilmişdir.

Bayram şənliyi başlamazdan əvvəl rayon rəhbərliyi tərəfindən xalqımızın milli sənət əşyalarından ibarət sərgiyə baxış keçirilmişdir. Sərgidə xalqımızın qədim adət-ənənələri ilə bağlı milli kulinariyaya məxsus şirniyyat boxçaları, həmçinin "Novruz" bayramının simvollarından olan səmənilər, Laçın Rayon Tarix Diyarşünaslıq muzeyinin eksponatlarından - nehrə, cəhrə, daraq, səhəng, küpə, mis kasa, kuzə, xalça, kilim, fərmaş, xurcun və sair kimi əşyalar yer almışdır. Sevindirici haldır ki, bu ilki sərgidə işğaldan azad olunmuş Laçından gətirilən eksponatlarda nümayiş olunmuşdur. Eyni zamanda tədbirdə müxtəlif əmək məşğuliyyətlərini tamaşaçılara göstərən səhnəciklər təşkil edilməklə, milli geyimli qızlar tərəfindən şənlik iştirakçılarına və bayrama dəvət olunmuş qonaqlara bayram şirniyyatları paylanılmışdır.

Təntənəli bayram şənliyində iştirak edən Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli bahar bayramı münasibətilə rayon sakinlərini təbrik edərək, qeyd etmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyəti ilə Müzəffər Ordumuz tərəfindən torpaqlarımızın azad edilməsi sayəsində dördüncü ildir ki, xalqımıza "Novruz" bayramının keçirilməsində xüsusi əhval-ruhiyə şən ovqat gətirmişdir. Rayon rəhbəri bu ilki "Novruz" byramının laçınlılar üçün ikiqat bayram oluğunu xüsusilə vurğulayaraq qeyd etmişdir ki, ötən ildən başlayaraq möhtərəm Prezidentimiz cənab İlham Əliyevin xeyir-duası ilə Laçın şəhərinə və rayonun Zabux kəndinə qayıdan 650-dən çox ailə 32 ildən sonra bayram tonqalını ata-baba yurdlarında yandıracaq ki, bundan əziz və qürurverici hiss ola bilməz.

Rayon rəhbəri çıxışında xalqımızın milli adət-ənənələrinə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də yüksək diqqət və həssaslıqla yanaşıldığını, eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin inkişafına göstərdiyi misilsiz xidmətlərindən danışmışdır.

Tədbirdə cəngi sədaları altında Dədə Qorqud bayram tonqalına yanaşaraq tonqalı yandırmaq üçün məşəli rayon rəhbərinə təqdim etmiş, bayram tonqalı ətrafında davam edən tədbir rayonun mədəniyyət və incəsənət nümayəndələrinin təqdim etdikləri geniş bayram konserti ilə davam etdirilmiş, kosa və keçəlin tədbir iştirakçıları ilə şən viktorinaları təşkil olunmuşdur.

Tədbirdə səsləndirilən rəngarəng musiqi nömrələri, rəqqasələr qrupunun çıxışları, bir sıra milli adət-ənənələrin nümayiş olunması, tədbirə dəvət edilmiş "N" saylı hərbi hissənin əsgərlərinin qəsəbə sakinləri ilə birgə rəqsləri tədbir iştirakçılarında yüksək bayram əhval ruhiyyəsi, şən ovqat yaratmışdır.

4 № 11 (571) DÎPLOMAT 18-24 mart, Adar, sal. il 2024

# ZƏRDÜŞT VƏ NOVRUZ HAQQINDA

124 min peyğəmbərin sırasında Zərdüştün yeri, sözsüz ki, siyahıda ən yuxarı sətirlərdədir. İndiyədək onun adı daha çox müqəddəs Avesta kitabıyla qoşa, sinxron çəkilib. Lakin, Zərdüştün irsi təkcə elə bu kitabla kifayətlənmir. Zərdüştün günümüzədək gəlib yetirmiş mirasına həm də onun hazırladığı çox dəqiq astroloji təqvim də daxildir. Aşağıda biz sizlərə bu təqvimin tarixi, mənşəyi, xüsusiyyətləri barədə danışmaq istəyirik.

* * *

Orta əsr ərəb məxəzləri Zərdüştün mənşəyi, doğum yeri barədə tərəddüd etmədən eyni fikri bölüşürlər-o, Azərbaycanda dünyaya göz açıb. Əl-Biruni də bu fikirdədir, əl-Bəlazuri, əl-Qəzvini, əl Həməvi də. Avestanın ən qədim parçası sayılan "Qat"larda deyilir ki, Zərdüşt Turan tayfaları ərazisində doğulub. Sonradan vətənini tərk edərək Viştasp adlı bir hökmdarın məmləkətinə sığınıb. Uzun zaman onun himayəsi altında fəaliyyət göstərib. Beləliklə ulu Zərdüşt məhz Azərbaycan peyğəmbəridir. Yəni, belə deyək-Azərbaycan da peyğəmbərlər ölkəsi sayıla bilər. Peyğəmbərlər isə, bildiyimiz kimi heç vaxt öz vətənlərində qəbul edilmirlər. Bu acı tale Zərdüştü də təqib edir. 30 yaşında Zərdüşt bir sıra silahdaşlarının əhatəsində (onların sırasında qadınlar da varmış) Eran-Vedjo adlı müqəddəs bir şəhərə yollanır. Həmin şəhər vaxtilə əfsanəvi Cəmşid tərəfindən xüsusi plan əsasında inşa edilibmiş. Soyuq qış şaxtalarından qorunmaq naminə ən nümunəvi insanlar, heyvanlar, bitki növləri və s.i və ilaxır məhz bu uzaq ünvanda qorunub saxlanırmış. İndiki dillə desək, görünür bura bir növ buğda, cins, toxumluq, damazlıq mərkəziymiş. Orda, görünür həm də öz dövrü üçün ən mükəmməl rəsədxana da yerləşirmiş.

Zərdüşt peyğəmbər məhz həmin rəsədxanadan istifadə edərək öz mükəmməl astroloji təqvimini hazırlayır. Uzun illər sürən araşdırmalardan sonra alimlər həmin bu rəsədxananı indiki Rusiyanın Çelyabinsk vilayətində, Arkaim şəhərciyində aşkarlayırlar. Şəhər çox qəribə plan əsasında tikilib. Əslində bu dairəvi günəş şəhəri, canlı rəsədxanadır. Günəşin səmadakı səyahəti, bu şəhərin quruluşunda dəqiq ölçülərlə təkrarlanır- millimetrinə qədər. Əslində, burda şəhərlə rəsədxana arasında elə bir fərq yoxdur.

Belə mükəmməl dairəvi sxemləri, naxışları, gəlin, insan əməyinin məhsulu bilməyək. Adətən, yaz, yay aylarında bu cür düzənlik ərazilərdə səhər vaxtları "kürəvi ildırım" adlanan möcüzəli təbiət fenomeni gəzir. Torpaq, yaxud taxıl, əkin zəmiləri üzərində mükəmməl naxışlar həkk edir. Nəinki Zərdüşt zamanları, elə indi də oxşar naxışlar, bir də görürsən, hansısa bir əkin sahəsi üzərində aşkarlanır. Başlayır camaat arasında minbir şaiyə yaratmağa. Həmin dairələrin ortasındakı buğda sümbülünün keyfiyyəti həmişə kənardakılardan üstün olur. Alimlər bunu təbii seleksiya



nümunəsi bilirlər.

Belə naxışların biri üzərində əfsanəvi Cəmşid, bayaq adını çəkdiyimiz günəş şəhərini- Arkaimi inşa edir. Şəhər, göydəki günəşin hərəkət trayektoriyasını özündə tam əks etdiyindən əsl rəsədxana imiş.

Belə dairəvi günəş şəhərləri o vaxtkı Orta Asiya, Güney Ural ərazisində bir deyil, iki deyildi. Qədim türklər bu cür dairəvi şəhərlərə "qazan" deyərlərmiş. Məncə, indiki Tatarıstanın paytaxtı Qazan şəhərinin adı da məhz həmin sirlə əlaqədardır. Dövrünün bir çox alimləri, o cümlədən ulu Zərdüşt məhz bu cür oxşar ünvanlarda göy cisimlərini müşahidə edirdilər. Bütün bunların son nəticəsi kimi axır ortaya Zərdüşt təqvimi çıxır.

* * *

Zərdüştülüklə bağlı olan nə varsa indi xalqımızın alt şüuruna hopub. Yəni, bəli, biz indi, bu gün nə Avestaya bələdik, nə də ki, qədim zərdüştülük ayinlərinə. Ancaq Zərdüşt təqvimindən indi də istifadə edirik. Xüsusən, Novruz bayramının dəqiq vaxtını təyin edərkən, biz bəli, məhz bu təqvimdən yararlanırıq.

Heyif ki, biz bu mükəmməl təqvimi deyəsən azca unutmuşuq. Halbuki öncəgörmələr baxımından həmin təqvimin tayı-bərabəri yoxdur. Müasir Rusiyanın bir nömrəli münəccimi sayılan aysor mənşəli Pavel Qloba, gələcək barədə öz proqnozlarını məhz bu təqvimə əsaslanaraq irəli sürür. İndi, Rusiyada elə bir samballı mətbuat orqanı yoxdur ki, orda Pavel Qlobanın astroloji proqnozları verilməsin.

Bu təqvim, 32 ili əhatə edən xüsusi qərinələrə bölünür. Hər il, bir heyvanın xassələrini özündə cəmləyir. Məsəlçün, martın 21-dən etibarən Porsuq ili başlayır. Porsuq isə neynir?-dərinliklərdə yuvasını qzıb ora alinə nə keçdisə yığır. Bu isə Porsuq ilini bank, maliyyə, xəzinə məfhumlarıyla, işarələriylə müşaiət edir. Yəni belə vaxtda bank böhranları, maliyyə silkələnmələri ola bilər. Porsuq rəmzi eyni halda keçmiş xatirələr, nostalji hissləriylə əlaqədardır. Yəni bu ildə biz nostalji hisslərini çox yaşamağa məhkumuq. Xəstələrə belə vaxtda dərman deyil, müalicəvi ot kökləri yemək məsləhət görünür. Porsuq ilində emosiyaları gizlətmək məsləhət deyil. Onları mütləq açıq-aşkar nümayiş etdirmək vacibdi.

1920, 1952, 1984, 2016, 2048 illər Zərdüşt təqvimində Porsuq illəri sayılır. Beləliklə, biz bu il 1920-ci il hadisələrini yenidən yaşaya bilərik. Yəni 1920-ci il 28 aprel hadisələrinin təkrarı, bir başqa şəkildə bu il bizləri təqib edəcək. Zərdüşt təqvimində hər bir rəmzin tam əksi də mövcuddur. Yəni, sən əgər Porsuq ilində bu rəmzin qanunlarıyla yaşamasan, özündən küs. Bil ki, belə halda əks rəmzin- Köstəbək rəmzinin dəyərlərini təkrarlamağa məhkumsan. Bu ilin bizə nə verəcəyini bilmək istəyirsinizsə, məşhur Britanya yazarı Ceyms Oruelin "1984" romanını diqqətlə oxuyun. Axı 1984-cü il də, eynən bu il kimi, Porsuq ili olub.

***Həmid Herisçı***

## Cejna Newrozê Serê Salê nû ye



**Konê Reş**

Cejnê Cejnê Cejnê
Xanê rok hat bejnê

Cejna newrozê ye
Serê salê nû ye

Va dar dipişkivin
Çiya dixemilin

Bi zer û kesk û sor
Bi riçinê wek por

Çûk çivîk dixwîn in
Hêlîna datîn in

Dil lêdide bijen
Xwerist dibe bi ken

Mirov dibe rûgeş
Jiyan şêrîn û xweş

Cejnê Cejnê Cejnê
Xello rok hat bejnê

Cejna Newrozê ye
Destpêka salê ye

Cejna ji sed salan
Roja bav û kalan

Heydê keko rabe
Bi vê rojê şabe

Em dadin agire
Ser zinar û gire

Agirê vê rojê
Nîşana Newrozê

Derenge zû rabe
Tev dostên xwe şabe.

**Strana Newrozê**

Bîst û yekê adarê
Destpêkirina buharê
Şaxên daran bişkivîn
Ji kulîlkên sor û şîn
Newroze cejna salê
Şev û roj hat qirarê
Rojên kevin hilatin
Rojên nû taze hatin
Rengê zemîn guherî
Şa bû, şivan û kerî
Newroze cejna salê
Şev û roj hat qirarê
Xwîna mirov dijene
Pêre dil jî dikene
Keç û kurên me kurdan
Bi şahî dikin dîlan
Newroze cejna salê
Şev û roj hat qirarê
Dibe dema evînê
Dil li ser dil datînê
Çûk û çivîk dixwînin
Hêlînên xwe datînin
Newroze cejna salê
Şev û roj hat qirarê.

## Zindîye Newroz



**BÊWAR BARÎ TEYFÛRÎ**

Zindîne meydan bona niştiman,
Rabûn serhildan torinê Medan.
Ji bo azayê gel ê Kurdistan,
Dimeşe temam bûye şoreşvan.
Bo bijî Newroz agir li xwe dan,
Geç û lawên me bûne pêkrewan.

***

Bi berxwedana zindîye Newroz,
Bi şeîda gel wê dike pîroz.
Newroz jîna nû ji mera xelat,
Ji Kewa dema ev roja felat.
Agrê Newrozê hingavt Rojhelat,
Bû cejn û vejîn hebûna welat.
Remza azayê ev roja evra,
Mizgînê didin bi agir hevra.
Suruşt jî şa dibe
Ku tê ev dem ,kat,
Girasê jînê Xudike heyat..

***

Gelê ku bindeste
Dijî bê sînor,
Jîyan jêra dibe
Çawa dojeh,gor.
Bedela azayê
Hertim xwîna sor,
Ew nay pêşkêş kirin
Dest tînin bi zor.



**Gohar Mamo**

## NEWROZA ME

Newroz bo kurda pîroze,
Deşt û zozan dixemilîne,
Tîrêjê rojê ser Welat tîne,
Serpêhatya Kawa bîrtîne.

Newroz roja eşq û dîlane,
Bazê eşq ser me direşîne,
Netewa me hemî lev tîne,
Qiralê Dihak jî me bîrtîne.

Îro cejna pîroz Newroze,
Dengê def û zurnê tê me,
Dengê govenda û tîlîlîya,
Gime- gima nigên kurda.

Newroz çiqas jî şîrîn be,
Roja tirs, xofa neyarane.
Ew baş dizane em kê ne-
Kurd heyfa xwe dertîne.

### Agir û şer em naxwezin!

Agir û şer em naxwezin!
Bes tev xîreta me bilîzin!
Zû-dereng emê serkevin,
Heyfa Welatê xwe rakin.

Ax li min, axx li min welat
Ev erdhej karasetek zore,
Tevizek da, me dilerizîne.
Axx, ev çi qewumî welat?

Her der xanî wêran bûne,
Bin axa sar, milet bê star,
Bin kavila denga tê te me-
Hewaar, werin me hewar.

Mirîyên me bê kefen man.
Ev qambaxa zivistana sar
Hezaran kuşt bin axa sar.
Miletê me dîsa ma bêstar.

Tehmê kurdên me her der,
Qahrîniya dayîkan hewaar
Dax dike dilê me bi şewat.
Axx welatê min, axx welat.

Dengê birîndaran her der,
Nale-nala wan dihate me.
Çi zulmeke giran qewumî,
Ya rabî, felek xêrê nevîne.

Me çi kiriye bo xayîn felek?
Qet dûr naçe ji welatê me,
Carê bi rengek tê dora me,
Qey dadgeha xwedê tune.

571:1.QXD 26.03.2024 19:01 Page 5



# Nəvroz mifologiya deyil yaşanmış bir tatixi hadisədir!

Dəmirçi Kavənin zalım Dehhaka qarşı mübarizəyə qalxaraq xalqa verdiyi zülmünə son verdiyini bildirirlər. Kavə və üsyançılar, Dehhakın sarayını yandıraraq, Nəv-roz-yeni-gün xəbərini verir. O gündən bu yana 21 mart Kürdüstan və İran sərhədlərində yaşayanlar üçün milli azadlıq günü olaraq qəbul edilir.

M. Ö. 612-ci ildə Dəmirçi Kavənin dövrün zalım kralı Dehhaka qarşı inqilab edərək və sarayını yerlə bir edərək, zülmünə son verdiyini bildirilir. Izahatlara görə, Kavə və digər üsyançılar, Dehhakın sarayını yandıraraq, Nəvrozun -yeni günündə xəbərini verir. O gündən bu yana 21 Mart Kürdüstan və günümüz İran sərhədlər içində yaşayan qövmlər tərəfindən milli gün olaraq qəbul edilir.

Bu məşhur izahatların günümüzə qədər gəlməsinə səbəb olan və Nəvrozun Kürdlər üçün əhəmiyyətinə diqqət çəkən Kürd tarixçilərdən Mir Şerefxan, Dehhakın 21- martda dəmirçi ustası Kavə tərəfindən taxtdan endirildiyini və Kürdlərin Kavənin nəvələri olduğunu qeyd edir. Baş Xəbərin Nəvrozla bağlı suallarını cavablayan Kürdoloq Prof. Dr. Qədri Yıldırım isə, "Kavə hadisəni bir mifologiya, əfsanə və ya yaşanmamış bir hadisə deyil gerçəkdir" ifadələrini istifadə edir. Kürdüstanın içində olduğu vəziyyətə də diqqət çəkən Yıldırım, Kürdlərə zülm edən diktator və kralların varlığının davam etdiyini müdafiə edir.

**-Kürd Milli azadləq günü olan 21-mart Nəvroz mifologiya mı, gerçək mi?**

Nəvrozun tarixi mənbələrdəki yeri nədir?

Nəvroz, sözünün mənası olaraq "Yeni Gün" deməkdir. "Neo, new" kimi sözlər yeni mənasını verir; "roj, ruz" kimi fərqli təyin etmələr də "gün" mənasını verir. Bu səbəbdən "yeni gündür." Yeni gün deyildiyi zaman ağla nə gəlir, daha əvvəl necə bir vəziyyət var idi ki, bu vəziyyətin üstünə yeni bir gün və bu yeni bir bayram atmosferinə qovuşdu? Təbii hər kəsin ağılına Kavə məsələsi və onun Dehhak ilə etdiyi mübarizə gəlir. İşin maraqlı tərəfi, Kürd yazar və araşdırmaçıları yazdıqları əsərlərində, işlərində, araşdırmalarında, Kavənin Dehhakı öldürməsi hadisəsinə, Kavənin dəmirçilik onluğunu bir bayraq halına gətirməsinə bir növ 'əfsanə / mifologiya' gözüylə baxır. İslam tarixi qaynaqlarına baxıldığı zaman Kavə-Dehhak mübarizəsinin yaşanmış bir hadisə olduğu görülür. Yəni mən, ən azından 6-7 illik mədrəsə təhsilimi əsaslanaraq deyirəm: Başda Təbəri və Yakubinin işləri başda olmaq üzrə bir çox İslam tarixi qaynağında Kavə hadisəsini və Dehhakla olan mübarizəsi yaşanmış bir hadisə olaraq keçir.

İslam tarixi qaynaqlarında keçdiyinə görə Kavənin yaşadığı dövrdə Suriya torpaqlarında Dehhak adıyla zalım bir hökmdar varmış. Bunun iki çiyini üzərində ilanı xatırladan, bir növ xərçəngli iki baş çıxmış və özünə edilən tövsiyə əgər hər gün iki gəncin beyni xərçəngli yerə sürülürse irin iyiləşeceği deyilər. Bu da onu edir. Ta ki sıra Kavənin, bəzi rəvayətlərə görə 16, bəzi rəvayətlərə görə 17, bəzilərinə görə də 18. oğluna gəldiyində o zaman Kavə deyir edi Bəs e!' Deyər. 16-17 uşağı bu yolda qurban verildikdən sonra, Dehhaka qarşı bir inqilabi mübarizə verir, Dehhakı öldürür, öldürdükdən sonra taxta Feridun deyə bir padşahın gəlməsinə təşəbbüskar olur. Dehhakı öldürmədən əvvəl tərəfdarlarına "Dehhakı öldürürsəm, atəş yandıracağam, sonra dəmirçi önlüğümü bir dirəyin ucuna taxaraq qaldıracağam. Bu, Dehhakı öldürdüyümə dair bir göstərici simvol olacaq "deyir."

**-Kavə Sancağından bəhs edirsiniz. Kavənin önlüyü necə bayraq oldu? O bayrağa kimlər sahib çıxdı?**

Əsl burada bu nöqtəyə gəlmək çox əhəmiyyətlidir. Həm Taberi, həm Yaqub həm də digər İslam mənbələrində belə keçir: Kavənin bu önlüğünə bir aslan dərisi keçirilir, üstünə də mücevherat keçirilir və bir bayraq halına gətirilir. Aşağı yuxarı bu hadisə 6 min 600 il əvvəl yaşanır. Onun bayraq halına gətirilən önlüyü Kürdlərin və Farsların birlikdə meydana gətirdikləri ordularda bir bayraq vəzifəlisi tərəfindən Kavənin sancaklaştırılmış önlüyü ordunun önündə bayraq kimi qaldırılır. Yenə tarix qaynaqlarında söylənildiyinə görə bu sancakla olaraq hər döyüş müvəffəqiyyətlə nəticələnmiş, bir növ Kavənin bu bayrağı müqəddəslik qazanmış. E.ə. 4600-ci ildən bu hadisə yaşanır.



Prof. Qədri Yıldırım

Hz. Ömər dövrünə qədər bu iş belə gedir. Hz. Ömər dövründə kürdlərlə farsların orduları ilə İslam ordusu arasında meydana gələn bir döyüşdə Sasani Ordusu məğlub, Sasani dövlət arxivinə girilir. Müsəlman komandirlər tərəfindən Kavənin bayrağını tapırlar. Bayrağın üzərindəki daşı qənimət olaraq dağıdırlar, bir şəkildə bu bayraq da yox edilir. Bu bayraq, günümüzə çatmış deyil. Hz. Ömər zamanında Sasani dövlət arxivində konkret olaraq tapılmışdır.

Kavə hadisəni bir mifologiya, əfsanə və ya yaşanmamış bir hadisə deyil. Sancak Kavənin zəfərindən sonra qazanmış olduğu son şəklidir. Aslan dərisi keçirilən bu bayrağın eni 8 qulac, yəni 5 metr; uzunluğu 12 qulac, 7 metrə bərabərdir. Bel Amed deyə bir tarixçi var, onun təsbitinə görə üzərində ləl-cəvahiratlar vardı, dördbucaqlı şəkli bir şəkli vardır, bir də qızıl suyuna batırılıb möhkəm bağlanan üz ip var bu bayraq üzərində. Fürdosinin Şahnamədəki təsvirinə görə bu bayraq, bu bəhs etdiyim şəkildə Sasanilərin dövlət arxivində tapılmışdər.

Özlüyündə öz dövründə yaşanmış bir hadisədir. Bu belə olunca artıq yeni gün mənasını verən Nəvroz, Martın 21-i bərabər gəldiyi üçün hər il 21-mart həm Kürdlər, həm də Farslar tərəfindən bir milli bayram olaraq ələ alınır, qeyd olunur. Əvvəlcə Kürdlərin və Farsların qeyd etdikləri bu bayram bilavasitə Türklər, Ərəblər və başqa qövmlər də buna bir növ sahib çıxdı.

**-Türklər, Ərəblər və başqa millətlər necə sahiblənməyə başladı?**

Hər kəs öz tarixinə görə Nəvrozu bir şəkildə özləriylə əlaqələndirməyə çalışdı. Kürdlər və Farslar baxımından Nəvrozun daşıdığı mənanın ağırlığı bu bəhs etdiyim yaşanmış hadisədə yatır. Yəni Dehhaka qarşı Kavənin verdiyi mübarizə və dəmirçi olan Kavənin bayraq halına gətirilmiş bir zəfər önlüyü söz mövzusudur. Bunun yanında baharın özünü göstərməsi, bir mövsüm dəyişikliyi, qışa qarşı baharın vermiş olduğu müqavimət və mübarizə; havanın gözəl olması, yavaş-yavaş təbiətin yaşıllıqlara bürünməsi kimi vəziyyətlər də işin mövsümi tərəfini təşkil edir.

Nəvroz Kürdlər və Farslar tərəfindən milli bayram olaraq qəbul edildikdən sonra İslam sonrası xüsusilə Abbasi zamanında İrani milli birliklər həm Kürdlər həm də Farslar Abbasinin ictimai quruluşu içərisində əhəmiyyətli bir yer tuturdu. Nəvroz bayramı Abbasilər zamanında rəsmi bayram olaraq qəbul edildi. Necə ki, bir qurban və ramazan bayramı dövlətin rəsmi tətilləri qəbul edilir, yenə necə hər ölkənin özünə görə milli bayramları varsa və bu bayram rəsmi tətil günləri olaraq qəbul edilirsə, Abbasilər zamanında da Nəvroz bayramı rəsmi bayram olaraq qəbul edilirdi. Qeyd etmələr, Abbasilərin hakim olduqları şəhərlərdə, kəndlərdə və çöl sahələrdə bir çox valinin, komandirin və mərkəzinin xəlifənin iştirakı ilə bu Nəvroz bayramı keçirilirdi.

**-Nəvroz Kürdlərin və Farsların İslamiyyəti qəbul etməsindən necə bir müddətdən keçdi?**

Kürdlər və Farslar, İslamdan əvvəl Zərdüştlük dininə mənsub idi. Zərdüştlükdə də Nəvrozun əhəmiyyətli bir yeri vardır. Hz. Ömər Kürdlər və Farslar ibarət ordunu məğlub etdikdən sonra bir sülh müqavilesi etdilər. Bu müqavilənin 8 maddəsi vardır, bu maddələrdən biri də Nəvroz və digər bayramlarla əlaqədar bir maddədir. Hz. Ömərlə Kürdlər və Farslardan ibarət ordunun imzaladığı müqaviləyə görə "Kürdlər və Farslar öz Newroz da daxil olmaq üzrə milli bayramlarını sərbəst bir şəkildə keçirə biləcəklər" deyildi. Bu maddə həm o dövrdə, həm Əməvilər, həm də Abbasilər dövründə qorundu. Abbasilər dövründə dövlət adamları, qubernatorlar, vəzirlər və komandirlər də Nəvrozu qeyd etmələrində iştirak edirdi. Hz. Ömərdən sonra Hz. Əli zamanına baxdığımızda maraqlı bir vəziyyətlə qarşılaşırıq. İslam tarixində ilk dəfə Hz. Əli, bir Newroz hədiyyəsini qəbul edir. Yəni öz dövründə özünə bəzi hədiyyələr təqdim edilir, o da bunlar nəyin hədiyyələri olduğunu soruşduqda, bunlar Nəvroz hədiyyələri deyir və Hz. Əli bu hədiyyələri qəbul edir. İslam tarixində bilindiyi qədəriylə Hz. Əli Nəvroz hədiyyələrini qəbul edir.

**-Yaxşı Nəvroz Kürd ədəbiyyatındaa necə əks olunmuşdur?**

